## Füzulişünaslıq sektoru

*Füzulişünaslıq sektorunun əməkdaşları* 2018-ci ildə 4 elmi-tədqiqat işini yerinə yetirib, 2 kitab, 8 məqalə çap etdirib. *Sektorun müdiri, f.e.d. Ataəmi Mirzəyev* "Füzulinin tərcümə yaradıcılığı", *f.ü.f.d., dosent Sevinc Ağayeva* "Füzulinin Azərbaycan-türk divanı", *elmi işçi Pəri Həsənli* "Söhbətül-əsmar" mövzusunda tədqiqatlar aparıb. Bu ildə A.Mirzəyevin "Əlyar Səfərlinin mətnşünaslıq fəaliyyəti" məqaləsi alimin 80 illik yubileyinə həsr edilmiş Respublika elmi konfransının materiallarında (Bakı, Elm və təhsil; 2018, s.68-72), yenə onun "Əlinin "Qisseyi-Yusif" əsəri Qurani-Kərim kontekstində" məqaləsi "Ədəbiyyat məcmuəsi"ndə (2018, № 6, s.88-99), *f.ü.f.d., dosent Sevinc Ağayevanın* "Füzulinin Azərbaycan türk "Divanında qafiyə" məqaləsi "Filologiya və sənətşünaslıq" (2018, № 2, s.160-164), Pəri Həsənlinin "Əlyar Səfərli yaradıcılığında "Söhbətül-əsmar" problemi" adlı məruzəsinin mətni konfransın materiallarında çapdan çıxıb.

Bu ildə *şöbənin müdiri Ataəmi Mirzəyev* Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının medalı ilə təltif olunub.

Hazırladı:

**Əlizadə Əsgərli**
AMEA Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutunun elmi işlər üzrə
direktor müavini, filologiya elmləri
doktoru, professor

**Ataəmi Mirzəyev**
Füzulişünaslıq sektorunun müdiri,
filologiya elmləri doktoru, professor